AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ BAKI DÖVLƏT UNİVERSİTETİ

*əlyazması hüququnda*

**AQİL SƏYYAD OĞLU HÜSEYNOV**

# BEYNƏLXALQ DƏNİZ TƏŞKİLATLARININ HÜQUQ SUBYEKTLİYİ

**İxtisas: 5603.01 - «Beynəlxalq hüquq; insan hüquqları»**

**Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**AVTOREFERATI**

**Bakı – 2016**

**Dissertasiya işi AMEA Fəlsəfə və Hüquq İnstitutunda yerinə yetirilmiş, müzakirə edilmiş və müdafiəyə tövsiyə edilmişdir.**

| | |
|---|---|
| **Elmi rəhbər:** | **hüquq elmləri doktoru, professor R.F.MƏMMƏDOV** |
| **Rəsmi opponentlər:** | **hüquq üzrə elmlər doktoru E.Ə.ƏLİYEV** |
| | **hüquq üzrə fəlsəfə doktoru dosent H.D.Qəmbərov** |
| **Aparıcı təşkilat:** | **Milli Aviasiya Akademiyasının "Hüquqşünaslıq" kafedrası** |

Dissertasiya işinin müdafiəsi «_29___» «___11______» 2016-cı il tarixdə saat «_____» Bakı Dövlət Universiteti nəzdindəki FD.02.013 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ-1148, Bakı şəhəri, Z. Xəlilov küçəsi, 23, Bakı Dövlət Universiteti, I tədris binası, 901 saylı auditoriya.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat «____» «_________» 2016-cı il tarixdə göndərilmişdir.

**FD.02.013 Dissertasiya şurasının elmi katibi,**

hüquq üzrə fəlsəfə doktoru: Ə.Q.MƏMMƏDOV



## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Dünya okeanından istifadə sferasında ixtisaslaşmış beynəlxalq dəniz təşkilatlarının mühüm rol oynması zəruri və obyektiv bir tələbat kimi qiymətləndirilməlidir. Dövlətlərin Dünya okeanındakı fəaliyyətlərinin bütün növlərinin, onun resurslarından səmərəli istifadə edilməsinin, ekoloji tarazlığının saxlanılmasının tənzimlənməsi və s. ilə bağlı məsələlərin pozitiv həlli praktik olaraq bu təşkilatların iştirakı olmadan mümkün deyildir. Beynəlxalq dəniz təşkilatları Dünya okeanının mənimsənilməsi, onun hüquqi rejiminin müəyyən edilməsi üzrə fəaliyyət göstərən çoxtərəfli əməkdaşlıq alətidirlər. Beynəlxalq təşkilatlar sistemində özünəməxsus yer tutan beynəlxalq dəniz təşkilatlarının Dünya okeanının hüquqi rejiminin müəyyən edilməsində artan rolunu aşağıdakılarla izah etmək olar: okeanların və dənizlərin istifadə olunmasında dünyanın bütün dövlətlərinin maraqlı olması; dövlətlərin iqtisadi potensialının inkişafına imkan verən yeni istifadə növlərinin yaranması; dəniz mühitinin çirklənməsinin durmadan artması; dənizdən istfiadə ilə bağlı bir çox məsələlərin hüquqi tənzimlənməməsi və ya tam olaraq tənzimlənməməsi və bu tənzimetmənin beynəlxalq hüquqi əsaslarının yaranmasında dövlətlərin maraqlı olması və s. Onu da qeyd edək ki, bu təşkilatlar təkcə beynəlxalq dəniz hüququnun norma və prinsiplərini, onların tətbiqi üzrə və dəniz sahələrindən səmərəli istifadə qaydalarını işləyib hazılamırlar, özləri də bu sahədə hərtərəfli fəaliyyət göstərirlər. Müasir şəraitdə beynəlxalq dəniz təşkilatları xüsusi mexanizm qismində Dunya okeanının beynəlxalq hüquqi rejimi çərçivəsində fəaliyyət göstərir, Dünya okeanının sahələrindən və resurslarından istifadə edilməsi sahəsində beynəlxalq münasibətləri tənzimləyən faktor kimi çıxış edirlər.

Dünya okeanından istifadə sferasında yeni hüquq qaydasının yaradılması zərurəti, beynəlxalq dəniz təşkilatları çərçivəsində dövlətlərin əməkdaşlığının daha da dərinləşməsi və yeni çalarlar əldə etməsi, onlar tərəfindən tənzimlənən münasibətlərin dairəsinin genişlənməsi sübut edir ki, müasir təcrübə beynəlxalq dəniz təşkilatlarının inkişafına və təkmilləşdirilməyə meyl etməsi ilə xarakterizə olunur. Dəniz mühitindən istifadənin kompleks xaratkerli

fəaliyyət olması, tənzimetmə mexanizmi kimi beynəlxalq dəniz təşkilatlarının fəaliyyətində beynəlxalq ümumi və beynəlxalq xüsusi hüquq aspektlərinin birləşməsi, dənizdən yeni istifadə növlərinin meydana çıxması bu sahədə dövlətlər üçün normativ tənzimləmə baxımından müəyyən problemlərin meydana gəlməsini istisna etmir. Bu problemin aradan qaldırılmasının yeganə yolu beynəlxalq dəniz təşkilatları tərəfindən milli və ümumbəşəri maraqların qarşılıqlı əlaqəsini nəzərə almaqla dünya birliyinin bütün üzvlərinin tələblərinə cavab verən beynəlxalq standartların qəbul edilməsidir. Deyilənlər belə bir qənaətə gəlməyə imkan verir ki, müasir şəraitdə beynəlxalq dəniz təşkilatları praktik olaraq Dünya okeanının rejiminin müəyyən edilməsi üzrə dövlətlərin qarşılıqlı fəaliyyətlərinin bütün sferasını əhatə edir və bu sahədə hüquq yaradıcılığı və hüquq tətbiq etmədə mühüm rol oynayırlar.

Müstəqillik əldə etdikdən sonra digər dövlətlər kimi Azərbaycan Respublikasında (AR) da Dünya okeanının beynəlxalq rejiminə, bu sahədə fəaliyyət göstərən beynəlxalq dəniz təşkilatlarına ciddi maraq yaranmışdır. Bunu nəzərə alaraq milli hüquq sistemi ilə beynəlxalq miqyasda müəyyənləşdirilmiş standartların razılaşdırılmasını təmin etməli olan əsaslı hüquq islahatları aparılmaqdadır. Bu islahatlar gəmiçilik, dəniz mühitinin mühafizəsi, dəniz ticarəti və s. ilə bağlı münasibətləri nizama salan (Ticarət Gəmiçilik Məcəlləsi; AR dəniz nəqliyyatı gəmilərində xidmət Nizamanməsi və s.) qanunvericilik sahəsindən də yan keçməmişdir. AR beynəlxalq dəniz təşkilatları, o cümlədən Beynəlxalq Dəniz Təşkilatı (İMO) çərçivəsində qəbul edilmiş bir cox konvensiyalara və qətnamələrə qoşulmuş və həmin aktlarda nəzərdə tutulmuş beynəlxalq müqavilə və qeyri-müqavilə normaları (texniki standartlar) inkorporasiya və göndərmə formasında AR qanunvericiliyinə implemantasiya olunmşdur. Yeri gəlmişkən, qeyd edək ki, Azərbaycan Respublikası İMO-nun «ağ siyahısı»ndadır. Bununla birlikdə, nəzərdən keçirlən sahədə yaxın vaxtlara kimi bir sıra boşluqlar da olmuşdur. Təkliflərdən biri də məhz bu boşluqların aradan qaldırılmasını nəzərdə tuturdu. Azərbaycan Respublikası Dəniz hüququ üzrə 1982-ci il BMT Konvensiyasını yalnız bu il ratifikasiya etmişdir.

Dssertasiya mövzusunun aktuallığı, həm də beynəlxalq dəniz təşkilatlarının fəaliyyətləri ilə bağlı məsələlərin Azərbaycan beynəlxalq hüquq elmində araşdırılması səviyyəsinin açıq-aşkar yetərli olmaması ilə bağlıdır. Hərçənd, Azərbaycanın hüquq doktrinasında beynəlxalq dəniz təşkilatlarının hüquqi statusu problemi 80-ci illərdə S.R.Zeynalov tərəfindən araşdırılmışdır. R.F.Məmmədovun, A.A.Məhərrəmovun və başqa tədqiqatçıların əsərlərində də problemin fərqli aspektlərinə toxunulmuşdur. Lakin məsələnin tədqiqat işindəki predmetə uyğun kompleks araşdırılması həyata keçirilməmişdir. Tədqiqat işində eyni zamanda beynəlxalq dəniz təşkilatlarının dövlətüstü qurum xüsusiyyətləri təhlil edilir.

**Tədqiqat işinin obyektini** beynəlxalq dəniz təşkilatlarının beynəlxalq hüquq subyektliyini xarakterizə edən xüsusiyyətlərin və Dünya okeanınının hüquqi rejiminin müəyyən edilməsində beynəlxalq dəniz təşkilatlarının iştirakı ilə bağlı hüquqi məsələlər təşkil edir.

**Tədqiqat işinin predmetini** beynəlxalq dəniz təşkilatlarının hüquq subyektliyinin xüsusiyyətləri ilə bağlı hüquqi məsələlər təşkil edir.

**Tədqiqat işinin məqsəd və vəzifələri**. Beynəlxalq dəniz təşkilatlarının ayrıca kateqoriya institusional mexanizmlər kimi tədqiq edilməsində **məqsəd**, bir tərəfdən, Dünya okeanından istifadə edilməsində mühüm əhəmiyyət daşıyan bu təşkilatların hüquq subyektliyini müəyyən etmək, digər tərəfdən, onların beynəlxalq dəniz hüququnun inkişafında rolunu öyrənməkdir.

Bu məqsədə nail olmaq üçün tədqiqat işində aşağıdakı **vəzifələr** qarşıya qoyulmuşdur:

– təşkilati-hüquqi birlik kimi çıxış edən beynəlxalq dəniz təşkilatlarına anlayış vermək və onların Dünya okeanının hüquqi rejimi çərçivəsində fəaliyyət göstərən xüsusi mexanizm kimi əhəmiyyətini göstərmək;

– beynəlxalq təşkilatlar sistemində özünəməxsus yer tutan bu təşkilatların Dünya okeanının hüquqi rejiminin müəyyən edilməsində üstün rolunu əsaslandırmaq;

– beynəlxalq dəniz təşkilatlarının xarakterik xüsusiyyətlərini üzə çıxarmaq və onları göstərmək;

– beynəlxalq dəniz təşkilatlarının müxtəlif meyarlar nəzərə alınmaqla təsnifatını aparmaq;

– beynəlxalq dəniz təşkilatlarının beynəlxalq hüquq subyekt-

liyinin hüquqi əsaslarını kompleks tədqiq etmək;

– beynəlxalq dəniz təşkilatlarının normayaradıcılıq fəaliyyətinin obyektiv əsaslarını müəyyənləşdirmək və bu fəaliyyətə təsir edən amilləri tədqiq etmək, həmin təşkilatların normayaracılığının anlayışını və məzmununu üzə çıxarmaq;

– beynəlxalq dəniz təşkilatlarının normayaradıcılığında iştirak formalarını müəyyən etmək;

– təşkilatdaxili hüquq normalarının yaradılması sahəsində beynəlxalq dəniz təşkilatlarının fəaliyyətlərinin xüsusiyyətlərini aşkar etmək, təşkilatdaxili normaların hüquqi məcburilik qüvvəsini təhlil etmək;

– beynəlxalq dəniz hüququ sferasında yaranan mübahisələrin beynəlxalq dəniz təşkilatları çərçivəsində həlli xüsusiyyətlərini kompleks tədqiq etmək;

– beynəlxalq dəniz təşkilatları çərçivəsində qəbul olunmuş konvensiyaların Azərbaycan Respublikasının bu məsələlərlə bağlı qanunvericiliyinə implementasiyası vəziyyətini analiz etmək, mövcud boşluqları və çatışmazlıqları aşkar etmək, onların təkmilləşdirilməsinə dair konkret təkliflər və tövsiyələr irəli sürmək.

**Tədqiqat işinin metodoloji əsasını** ümumnəzəri və sosial-elmi idrak metodları təşkil edir. Dissertasiyada müqayisəli-hüquqi və formal-məntiqi metodlardan daha geniş istifadə olunmuşdur. Tədqiqatda sistem-struktur, sosioloji, tarixi və başqa tədqiqat metodları da tətbiq edilmşidir.

**Tədqiqat işinin nəzəri əsasları**. Dissertasiyanın yazılması zaman müəllif Barkovski İ., Bekyaşev K.A., Biryukov P.N., Blay S., Braun E.D., Churchill R., Çernıçenko S.V., Dyke J. M. Van, Entin L.M., Əliyev Ə.İ., Freestone D., Gjerde M. K., Hayashi Moritaka, Hüseynov L.H., Xələfov X.A., İvanov Q.Q., İqnatenko Q.V., Kalodkin R.A., Kovalyov A.A., Koloşa Y., Kraska J., Kulov H.B., Quçulyak V.N., Lukaşuk İ.İ., Malkolm D.Evans., Məmmədov R.F., Məmmədov R.K., Məmmədov Ə.Q, Movçan P.R., Neşatayeva T.N., Palieri B., Piotroviç R., Roach J. Ashley, Rothwell D.R., Sadıqov Ə.İ., Scott N. K., Serebryakov B.B., Skubişevski K., Smith W. Robert, Stephens T., Şervers H.Y., Şibayeva E.A., Şumilov V.M., Tanaka Yoshifumi, Tiunov O.İ., Tunkin Q.İ., Vıleqjanin A.N., Zeynalov S.R., Zimnenko V.L. kimi hüquqşünas-alimlərin əsərlərinə



istinad etmişdir.

**Tədqiqat işinin normativ əsasları**. Dissertasiyanı yazarkən müəllif tədqiqatın əsas mənbələri qismində BMT Nizamnaməsini, Dəniz hüququ üzrə 1982-ci il Konvensiyasını, Beynəlxalq Dəniz Təşkilatı haqqında 1948-ci il Konvensiyasını, Beynəlxalq dəniz rabitə əlaqəsi təşkilatı (İNMARSAT) haqqında 1976-ci il Konvensiyasını, Müqavilələr hüququ haqqında 1969-cu il Konvensiyasını, Dənizdə insan həyatının mühafizəsi haqqında 1974-cü il Konvensiyasını (SOLAS-74), Dəniz gəmilərinin toqquşmasının qarşısının alınmasının beynəlxalq qaydaları haqqında 1972-ci il Konvensiyasını, Gəmilərin və liman qurğularının təhlükəsizliyi üzrə 2002-ci il Beynəlxalq Məcəlləni, İMO tərəfindən müəyyən olunmuş standartları, beynəlxalq məhkəmə orqanlarının hökmlərini, habelə Azərbaycan Respublikasının 2001-ci il Ticarət Gəmiçilik Məcəlləsini, Azərbaycan Respublikasının dəniz nəqliyyat gəmilərində xidmət haqqında 2000-ci il Nizamanməsini və s. qanunvericilik aktlarını təhlil etmişdir.

**Tədqiqat işinin elmi yeniliyi** ondan ibarətdir ki, beynəlxalq dəniz təşkilatlarının beynəlxalq hüquq subyektliyi məsələləri, onların Azərbaycan Respublikası ilə əlaqələri, beynəlxalq dəniz hüququ üzrə normaların Azərbaycan Respublikasının daxili qanunvericiliyinə implementasiyası vəziyyəti Azərbaycan beynəlxalq hüquq elmində ilk dəfə tədqiq olunur.

Dissertasiya işinin elmi yeniliyini özündə əks etdirən və müəllif tərəfindən müdafiəyə çıxarılan **elmi müddəalar** aşağıdakılardır:

1. Beynəlxalq hüquqda hansı şəxsin beynəlxalq hüquq subyekti olması haqqında mütləq norma olmasa da beynəlxalq dəniz təşkilatları olaraq beynəlxalq müqavilə əsaslı hökumətlərarası təşkilatlar başa düşülür. Beynəlxalq müqavilə əsaslı beynəlxalq dəniz təşkilatlarının beynəlxalq hüquq subyektliyi-hüquq subyektliyinin həcmi və məzmunu, onların kompetensiyası (predmet səlahiyyəti), məqsəd və vəzifələri, səlahiyyət funksiyası və s. nəzərə alınmaqla müəyyən olunur.

2. Beynəlxalq dəniz təşkilatlarının ayrıca kateqoriya təşkilatlar kimi tədqiq edilməsində məqsəd onların statusunun Dünya okeanının hüquqi rejiminin ayrılmaz tərkib hissəsinə çevrilməsidir. Onlar bu

rejimin əsasını təşkil edən norma və qaydaları müəyyən etməklə yanaşı, həm də onların realizəsində davamlı formada iştirak edirlər. Müasir şəraitdə beynəlxalq dəniz təşkilatları Dünya okeanın hüquqi rejimi çərçivəsində xüsusi mexanizm kimi fəaliyyət göstərməkdədirlər.

3. Beynəlxalq dəniz təşkilatlarının xüsusiyyətləri iki əsas amillə müəyyən olunur. Bunlardan birincisi, beynəlxalq dəniz təşkilatlarının hüquqi vəziyyətidir. Bu təşkilatların hüquqi vəziyyətinin özünəməxsusluğu ondadır ki, bir tərəfdən, onlar beynəlxalq dəniz hüququnun inkişafına əhəmiyyətli təsir göstərməklə, onunla sıx bağlı olmaqla yanaşı, digər tərəfdən, beynəlxalq ümumi (beynəlxalq təşkilatlar hüququnun) hüququn institutu olaraq qalırlar.

4. Beynəlxalq dəniz təşkilatlarının hüquq subyektliyi hüquq yaratma, şərh etmə (təfsir), hüquq tətbiqetmə, öz hərəkətlərinə görə beynəlxalq hüquqi məsuliyyət daşımaq xüsusiyyətilə təzahür edir. Hüquqyaratma prosesi geniş anlamda beynəlxalq müqavilə normalarını, beynəlxalq xarakterli təcrübəni, texniki təhlükəsizlik standartlarını ehtiva edir. Beynəlxalq hüquq normalarının şərhi bir qayda olaraq beynəlxalq dəniz münasibətləri üzrə məhkəmə (arbitraj) qurumlarının beynəlxalq hüquq tətbiqetmə prosesində təzahür edir. Lakin beynəlxalq dəniz təşkilatlarının beynəlxalq hüquq subyektliyi bununla bitmir, onların bir sıra operativ (əməli) fəaliyyət funksiyası da mövcuddur.

5. Müasir dövrün qlobal problemlərindən olan Dünya okeanından istifadənin səmərəli həll edilməsi vahid beynəlxalq hüquq qaydası yaradılmadan qeyri-mümkündür. Yeni beynəlxalq hüquqi rejiminin müəyyən edilməsi, özündə bu sferada beynəlxalq hüquq normalarının yaradılması və inkişaf etdirilməsini və həmin normalara riayət olunmasının təmin edilməsini birləşdirir. Beynəlxalq dəniz təşkilatları bu sahədə dayanıqlı diplomatiyanı da formalaşdırmaqdadırlar.

6. Beynəlxalq hüquq qaydasının müəyyən edilməsində beynəlxalq dəniz təşkilatlarının iştirakı, bu təşkilatların beynəlxalq hüquq subyektliyinin məzmununa aid olan əsas ünsür olmaqla onların «dövlətüstü qurum» xüsusiyyətləri əldə etməsini şərtləndirir. “Dövlətüstü qurum” xüsusiyyəti funksional fəaliyyət sferasında onların nəzarət mexanizmilə təmin edilməkdədir. Xüsusi mexanizm



olaraq beynəlxalq dəniz təşiklatlarının «dövlətüstü qurum» xüsusiyyəti, ilk növbədə üzv dövlətlər üçün məcburi qərarlar, standartlar qəbul edilməsində ifadə olunur.

7. Beynəlxalq dəniz təşkilatlarının qəbul etdiyi qətnamələr beynəlxalq dəniz münasibətlərinin tənzimlənməsinin yeni formasıdır və özündə həm qanunvericilik, həm də iradələrin uzlaşdırılması metodunun xüsusiyyətlərini birləşdirir, beynəlxalq təşkilatlar hüququnun mənbəyi qismində çıxış edir və bu qətnamələr tənzimetmə predmetindən asılı olaraq məcburi və tövsiyə xarakterli ola bilər.

8. Beynəlxalq dəniz təşkilatlarının hüquq subyektliyinin elmi araşdırılması Azərbaycan Respublikası ilə bu təşkilatlar arasında əməkdaşlığın forma və istiqamətlərinin genişləndirilməsi və təkmilləşdirilməsi baxımından əhəmiyyətlidir. Beynəlxalq dəniz təşkilatlarının statusunu, fəaliyyət istiqamətlərini tənzimləyən beynəlxalq müqavilələri, eləcə də Dəniz hüququ üzrə 1982-ci il BMT Konvensiyasını Azərbaycan Respublikasının (04 mart 2016-cı ildə) tanıması xalqımızın “bəşəriyyətin ümumi irs”indəki paydan hərtərəfli faydalanmasını təmin edəcəkdir.

9. Azərbaycan Respublikasının Dəniz hüququ üzrə 1982-ci il Konvensiyasını ratifikasiya etməsi, həm də xüsusi təminatlar verməkdədir. Konvensiyanın müəyyən etdiyi hüquqi imkanlar, o cümlədən Konvensiyanın 211-ci maddəsinin şərtlərini yerinə yetirməklə milli norma və standartların müəyyən edilməsini, beynəlxalq dəniz təşkilatlarının, o cümlədən Kontinental şelf sərhədləri üzrə Komissiyanın, Beynəlxalq Dəniz Tribunalının və s. imkanlarından istifadə təşviq edilmiş olacaq.

**Tədqiqat işinin praktiki əhəmiyyəti.** Dissertasiya işinin müddəaları Dünya okeanından istifadənin hüquqi rejiminin əsasını təşkil edən beynəlxalq qaydaların, ticarət gəmiçiliyi, gəmiçilik, dəniz mühitinin mühafizəsi və s. münasibətlərin tənzimlənməsi sferasında Azərbaycan Respublikasının daxili qanunvericiliyinin təkmilləşdirilməsində və inkişaf etdirilməsində istifadə oluna bilər. Dissertasiya tədqiqatının materialları, müddəaları və nəticələri beynəlxalq təşkilatlar hüququ, beynəlxalq dəniz hüququ fənlərinin tədrisində, gələcək elmi-nəzəri araşdırmalarda istifadə oluna bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası**. Dissertasiya işi

AMEA Fəlsəfə və Hüquq İnstitutunun «Beynəlxalq münasibətlər və beynəlxalq hüquq» şöbəsində hazırlanmış və müzakirə edilmişdir. Tədqiqat işinin əsas elmi müddəaları və nəticələri dissertasiya mövzusu ilə bağlı AR-də və xaricdə nəşr olunmuş jurnallarda, elmi-praktiki konfransların materiallarında nəşr olunmşudur.

**Tədqiqat işinin strukturu.** Tədqiqat işi girişdən, on dörd paraqrafı özündə birləşdirən dörd fəsildən, nəticə və istifadə olunmuş ədəbiyyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Girişdə** tədqiqat işinin aktuallığı əsaslandırılır, onun işlənmə dərəcəsi, elmi yeniliyi, məqsəd və vəzifələri, müdafiəyə çıxarılan elmi müddəalar izah olunur, dissertasiya işinin nəzəri və təcrübi əhəmiyyəti, nəticələrin aprobasiyası göstərilir.

Tədqiqat işinin **birinci fəsli «Dünya okeanının hüquqi rejiminin tərkib hissəsi kimi beynəlxalq dəniz təşkilatlarının anlayışı, xüsusiyyətləri və sistemi»** adlanır və üç paraqrafdan ibarətdir. **Birinci paraqrafda** beynəlxalq dəniz təşkilatlarının anlayışı və hüquqi təbiətindən bəhs edilir. Müəllifin fikrincə, hazırkı dövrdə dövlətlər üçün, bütövlükdə beynəlxalq birlik üçün həyati əhəmiyyət kəsb edən beynəlxalq əməkdaşlıq sferalarından biri Dünya okeanının mənimsənilməsi, onun hüquqi rejiminin müəyyən edilməsidir. Dəniz mühitindən istifadə ilə bağlı yaranan münasibətlərin müxtəlif subyektlər, hökumətlər, hüquqi şəxslər, fiziki şəxslər qrupu və s. arasında yaranmasını nəzərə alsaq, əməkdaşlıq forması kimi beynəlxalq dəniz təhkilatları həm hökumətlərarası, həm də qeyri-hökumət təşkilatlarından ibarətdir. *Müqavilələr hüququ haqqında 1969-cu il Vyana Konvensiyasına (m.2, b.1, «i») və Dəniz hüququ üzrə 1982-ci il Konvensiyasına (IX əlavə, m.1)* görə «beynəlxalq təşkilat» termini dövlətlər tərəfindən yaradılan hökumətlərarası təşkilatları ifadə edir. Lakin qeyd olunanlar beynəlxalq dəniz təşkilatları anlayışından dar mənada istifadə edilməsini şərtləndirmir. Tədqiqat işinin adından da göründüyü kimi tədqiqatın predmetini bütövlükdə beynəlxalq dəniz təşkilatlarının hüquq subyektliyi təşkil edir və beynəlxalq dəniz hüququ normalarının yaradılmasında və onların həyata



keçirilməsində qeyri-hökumət təşkilatları da mühüm rol oynayır.

Dünya okeanının hüquqi rejiminin ayrılmaz tərkib hissəsinə çevrilən *beynəlxalq dəniz təşkilatları* (BDT) bu rejimin normativ əsasını təşkil edən norma və qaydaları müəyyən etməklə yanaşı, həm də onların realizəsində bilavasitə iştirak edirlər. Beynəlxalq dəniz təşkilatları Dünya okeanının hüquqi rejimi çərçivəsində fəaliyyət göstərən- hüquq normalarına uyğun olaraq iştirakçıların iradələrini uzlaşdıran təsis aktı əsasında yaradılan, nizamnamə və daxili hüquq qaydaları əsasında beynəlxalq hüququn ümumtanınmış prinsip və normalarına uyğun, dəniz mühiti və onun ehtiyatlarının tədqiqi və onlardan istifadə edilməsi məsələləri ilə məşğul olan və bu istiqamətdə müvafiq funksiyaları yerinə yetirən orqanlara malik olan beynəlxalq dəniz hüququ normalarının yaradılmasında və onların həyata keçrilməsində iştirak edən təşkilati-hüquqi birlikdir.

**İkinci paraqraf** beynəlxalq dəniz təşkilatlarının xarakterik xüsusiyyətlərinə həsr edilmişdir. Beynəlxalq dəniz təşkilatları bütövlükdə beynəlxalq təşkilatlar üçün xarakterik olan bütün xüsusiyyətlərə malikdirlər, eyni zamanda onlar Dünya okeanın hüquqi rejiminin müəyyən edilməsində iştirak səviyyəsinə uyğun olaraq konkret məzmunlu xüsusiyyətlər də kəsb edirlər. Dünya okeanından və onun ehtiyatlarından istifadənin əsas qlobal problem olması və onun digər qlobal problemlərlə – ekologiya, enerji və s. sıx bağlı olması, eləcə də Dünya okeanından istifadənin kompleks xarakterli bir məsələ olmasıdır.

Beynəlxalq dəniz təşkilatlarının aşağıdakı özünəməxsus xüsusiyyətlərini göstərmək olar:1)beynəlxalq (hökumətlərarası) təşkilatların əsas əlamətlərindən biri, onların beynəlxalq müqavilə əsasında yaradılmasıdır. Bu əlamət üzrə beynəlxalq dəniz təşkilatları üçün xarakterik olan xüsusiyyətlərdən biri ondan ibarətdir ki, bəzən bu təşkilatların yaradılması üçün əsas beynəlxalq müqavilə deyil, ümumi səlahiyyətlərə malik olan beynəlxalq təşkilatların qətnaməsi olur; 2) beynəlxalq dəniz təşkilatları beynəlxalq dəniz münasibətlərinin tənzimlənməsi ilə yanaşı, həmin münasibətlərin bilavasitə iştirakçıları qismində də çıxış edirlər. Bu fərqləndirici xüsusiyyət beynəlxalq dəniz təşkilatlarının beynəlxalq xüsusi hüququn subyekti olmasını və beynəlxalq xüsusi dəniz münasibətlərində bilavasitə iştirak etməsini sübut edir. Məsələn,

1982-ci il Konvensiyası əsasında yaradılan Dəniz dibi üzrə Orqan onun tərkibində yaradılan xüsusi orqan – Müəssisə (*1982-ci il Konvensiyası, m.170*) vasitəsilə dəniz dibi Rayonunda istismar fəaliyyəti ilə məşğul olur; 3) hökumətlərarası beynəlxalq dəniz təşkilatlarında hökumətlə yanaşı, dəniz fəaliyyəti ilə məşğul olan və beynəlxalq hüququn subyektləri hesab edilməyən subyektlərin iştirak etməsi də özünəməxsus xüsuiyyətlərdən biridir. Bu xüsusiyyətinə görə beynəlxalq dəniz təşkilatları Beynəlxalq əmək təşkilatı ilə müqayisə edilə bilər; 4) beynəlxalq dəniz təşkilatlarının tənzimetmə fəaliyyətində çevikliyin təmin edilməsinə yönələn və normayaratma funksiyası ilə bağlı digər xüsusiyyət, mövcud konvensiyalara dəyişiklik və əlavələrlə əlaqədar *sakit qəbuletmə (tacit acceptance)*prinsipindən istifadə edilməsidir. Bu qayda müvafiq təşkilat çərçivəsində qəbul edilmiş konvensiyaların daha çox texniki normaları ilə bağlı tətbiq edilir; 5) digər beynəlxalq təşkilatlardan fərqli olaraq beynəlxalq dəniz təşkilatlarının quruluşu, hüquqi statusu, fəaliyyəti və s. bağlı norma və qaydalar üçün sistemlilik xarakterikdir.

**Üçüncü paraqrafda** beynəlxalq dəniz təşkilatlarının sistemindən bəhs edilir. Hüquq ədəbiyyatında mövcud olan müxtəlif fikirləri müqayisə edən müəllifin fikrincə, təsnifləşdirmə meyarı qismində aşağıdakı əlamətlərdən istifadə olunur: üzvlük, fəaliyyət predmeti, fəaliyyətin coğrafi həddi; iştirakçıların tərkibi, digər təşkilatlarla əlaqə və s. İlk təsnifat meyarı qismində üzvlük çıxış edir. Belə ki, beynəlxalq təşkilatda hökumətin, yoxsa fiziki və hüquqi şəxslərin çıxış etməsindən asılı olaraq hökumətlərarası (İMO, Dunay komissiyası və s.); qeyri-hökumət dəniz təşkilatları (Beynəlxalq Dəniz Komissiyası (BDK), Beynəlxalq gəmiçilik palatası (BGP) və s.), hökumətlərlə yanaşı, ictimai təşkilatların və ayrı-ayrı şəxslərin birgə iştirak etdiyi qarışıq üzvlü təşkilatlar (İNMARSAT, UNCTAD-ın Gəmiçilik Komitəsi, Beynəlxalq hidroqrafiya təşkilatı və s) fərqləndirilir.

Digər təsnifat meyarı fəaliyyət sferası və səlahiyyət həcmidir. Bu meyardan asılı olaraq ümumi səlahiyyətli BDT (İMO, BDK, UNCTAD-ın Gəmiçilik Komitəsi, Beynəlxalq okean institutu (BOİ) və s.) və xüsusi (dar) səlahiyyətli BDT (İNMARSAT, Orqan, UNESKO-nun hökumətlərarası okeanoqrafiya Komissiyası (HOK),



Kontinental şelf sərhədləri üzrə Komissiya, Beynəlxalq gəmiçilik palatası (BGP), Dəniz məsələləri üzrə Beynəlxalq arbitraj və s.) fərqləndirilir. Ümumi səlahiyyətlərə malik olmaq baxımından İMO beynəlxalq dəniz təşkilatları sistemində xüsusi çəkiyə malikdir. Beləliklə, beynəlxalq dəniz təşkilatlarının sistemi özünün daha təkmil strukturu ilə diqqəti cəlb edir.

Tədqiqat işinin **ikinci fəsli «Beynəlxalq dəniz təşkilatlarının beynəlxalq hüquq subyektliyinin əsasları və məzmunu»** adlanır və beş paraqrafdan ibarətdir. **Birinci paraqrafda** beynəlxalq dəniz təşkilatlarının beynəlxalq hüquq subyektliyinin anlayışı və hüquqi əsaslarından bəhs edilir. Müəllifin fikrincə, beynəlxalq təşkiltların beynəlxalq hüquq subyektliyi, onların beynəlxalq hüquq subyekti kimi hüquqi vəziyyətinin keyfiyyət göstəricisidir. 1982-ci il Konvensiyasının müddəalarını təhlil etməklə beynəlxalq hüquq subyektliyi ilə bağlı aşağıdakıları müəyyən etmək olar: 1) beynəlxalq hüquq subyektliyi və beynəlxalq hüquq qabiliyyəti fərqli anlayışlardır. Hüquq qabiliyyəti subyektiv hüquq və vəzifələrə malik olmaq qabiliyyəti olmaqla hüquq subyektliyinin konkret ifadəsidir; 2) digər müqavilələrdən fərqli olaraq 1982-ci il Konvensiyasında müvafiq bölmə və ya hissənin «hüquqi status, imtiyaz və immunitetlər» (XI hissənin g yarımbölməsi; IV əlavənin 13-cü maddəsi) kimi müəyyən edilməsi, ilk baxışdan terminoloji fərq kimi qəbul edilsə də, əslində istifadə olunan anlayışların hüquqi məzmunu baxımından əhəmiyyətlidir. BDT-yə münasibətdə hüquqi status, bu təşkilatların beynəlxalq münasibətlərdə, daha konkret Dünya okeanının hüquqi rejiminin müəyyən olunmasında hüquqi vəziyyətini səciyyələndirən müxtəlif ünsürlərin məcmusudur. Bura aşağıdakı ünsürləri aid etmək olar; a) beynəlxalq hüquq qabiliyyəti; b) beynəlxalq fəaliyyət qabiliyyəti; c) beynəlxalq hüquq yaradıcılığı prosesində iştirak etmək qabiliyyəti; d) öz hərəkətlərinə görə beynəlxalq hüquqi məsuliyyət daşımaq qabiliyyəti. Bu baxımdan *Dövlətlər ilə beynəlxalq təşkilatlar arasında və ya beynəlxalq təkilatlar arasında müqavilələr hüququ haqqında* 1986-cı il Konvensiyasında (m.6.) beynəlxalq təşkilatların müqavilə bağlamaq imkanının məhz «beynəlxalq təşkilatların hüquq qabiliyyəti» kimi təsbit edilməsi düzgündür. Nəzərə alsaq ki, BDT-nin beynəlxalq müqavilə bağlamaq hüququ, beynəlxalq dəniz hüquq normalarının

yaradılmasında iştirak səviyyəsi, beynəlxalq məsuliyyətləri və s. fərqlidir, o halda onların beynəlxalq hüquqi statusu, o cümlədən bunun keyfiyyət göstəricisi kimi beynəlxalq hüquq subyektliyi də fərqli olacaqdır. BDT-nin beynəlxalq hüquq subyektliyi özündə beynəlxalq ümumi-hüquqi və beynəlxalq xüsusi-hüquqi aspektləri birləşdirir. BDT-nin beynəlxalq hüquq subyektliyində beynəlxalq xüsusi aspekt üç istiqamətdə özünü büruzə verir: 1) beynəlxalq xüsusi dəniz hüququ normalarının müəyyən olunmasında; 2) ayrı-ayrı beynəlxalq xüsusi (öhdəlik, əşya, əmək və s.) hüquq münasibətlərində iştirak edilməsində; 3) beynəlxalq və milli məhkəmələrdə baxılan xüsusi-hüquqi xarakterli mübahisələrdə tərəf qismində çıxış edilməsində. BDT-nin beynəlxalq hüquq subyektliyi beynəlxalq hüququn prinsip və normalarına uyğun olan və Dünya okeanından istifadənin obyektiv inkişaf qanunauyğunluğundan irəli gələn beynəlxalq hüquqi statusun keyfiyyət göstəricisidir.

**İkinci paraqrafda** beynəlxalq dəniz təşkilatlarının beynəlxalq hüquq subyektliyini müəyyən edən amillərdən bəhs edilir. Qeyd edilir ki, BDT-nin beynəlxalq hüquq subyektliyini müəyyən edən mühüm amillərdən biri beynəlxalq təşkilatın predmet səlahiyyətidir (kompetensiyasıdır). Kompetensiya dedikdə, beynəlxalq təşkilatın fəaliyyət sferasına aid olan məsələlərlə bağlı malik olduğu səlahiyyətlər başa düşülür. Başqa sözlə, kompetensiya beynəlxalq təşkilatın həll etməyə hüququ olduğu və ya həll etməli olduğu məsələlərin dairəsidir. Bu amillə bağlı bütün beynəlxalq dəniz təşkilatları üçün ümumi olan onların hər birinin kompetensiyasının Dünya okeanından istifadə ilə bağlı olmasıdır. Təşkilatların predmet səlahiyyəti onların təsis aktları ilə müəyyən edilir. Lakin bu, BDT-nin «immanent kompetensiyaya» və ya «ehtimal olunan kompetensiyaya» malik olmasını inkar etmir. Bu kompetensiyanın mahiyyəti ondan ibarətdir ki, istənilən beynəlxalq təşkilat nizamnaməsində nəzərdə tutulan konkret müddəalardan asılı olmayaraq öz məqsədinə nail olmaq üçün zəruri hərəkətlər edə bilər. 1982-ci il Konvensiyasının bəzi maddələrində bu kompetensiya (məsələn, m.157) təsbit olunur. BDT-nin beynəlxalq hüquq subyektliyini müəyyən edən digər amil məqsəddir. Beynəlxalq təşkilatın məqsədi dedikdə, onun kompetensiyası ilə şərtlənən əsas fəaliyyət istiqamətləri başa düşülür. BDT öz kompetensiyaları çərçivəsində



qarşılarına qoyduqları məqsədlərə müvafiq olan vəzifələr yerinə yetirirlər.

BDT-nin beynəlxalq hüquq subyektliyini müəyyən edən amillər sırasında təşkilatın malik olduğu səlahiyyət və funksiyalar xüsusi əhəmiyyət kəsb edir. BDT-nin səlahiyyəti (hakimiyyəti), onun üzv dövlətlərə və digər subyektlərə münasibətdə siyasi, hüquqi qüvvəyə malik olan qərarlar qəbul etmək qabiliyyətidir. Təşkilatın bu qabiliyyəti onun kompetensiyası çərçivəsində və malik olduğu funksiyalara uyğun olur. Bu baxımdan hər bir BDT-nin səlahiyyəti fərqli ola bilər. BDT-nin funksiyası, onun qarşısında duran vəzifələrin yerinə yetrilməsi istiqamətində fəaliyyətidir. Bu baxımdan səlahiyyət və funksiya amili birlikdə və ya paralel müəyyən olunur. 1982-ci il Konvensiyasında Orqanın səlahiyyət və funksiyaları paralel müəyyən edilir(m.157). Hərçənd, bu xüsusiyyət mütləq deyil. Həyata keçirilən fəaliyyətin tipindən, vəzifələrin yerinə yetirilmə üsullarından asılı olaraq aşağıdakı funksiya və səlahiyyətlər fərqləndirilir: tənzimetmə; nəzarət; operativ (əməli); əlaqələndirmə-informasiya və s.

**Üçüncü paraqraf** beynəlxalq dəniz təşkilatlarının beynəlxalq hüquq subyektliyinin məzmununa həsr edilmişdir. Qeyd edilir ki, BDT-nin beynəlxalq hüquq subyektliyi, onların kompetensiyası, məqsəd və vəzifələri, səlahiyyət və funksiyaları ilə müəyyən olunan məzmuna malikdir. Təşkilatın beynəlxalq hüquqi statusuna müvafiq olaraq bu məzmuna aşağıdakılar daxildir: beynəlxalq hüquq qabiliyyəti; beynəlxalq dəniz hüququ normalarının yaradılmasında iştirak etmək qabiliyyəti; imtiyaz və immunitetdən istifadə hüququ; beynəlxalq-hüquqi məsuliyyət daşımaq qabiliyyəti; müstəqil iradəyə malik olmaq qabiliyyəti.

Beynəlxalq hüquq qabiliyyəti BDT-nin beynəlxalq hüquq subyektliyinin məzmununun əsas və zəruri hissəsidir. Beynəlxalq təşkilatların beynəlxalq müqavilə bağlamaq hüququ 1982-ci il Konvensiyasında (m.305) və IX Əlavədə təsbit olunur. *Dövlətlər və beynəlxalq təşkilatlar və ya beynəlxalq təşkilatlar arasında müqavilələr hüququ haqqında* 1986-ci il Konvensiyası (m.6) beynəlxalq təşkilatın müqavilə bağlamaq hüququnun təşkilatın daxili hüququ ilə müəyyən olunmasını təsbit edir. Ümumi müddəalar istisna olmaqla bu Konvensiya 1969-cu il *Müqavilələr hüququ haqqında*

Vyana Konvensiyasının eynidir. Çünki 1969-cu il Konvensiyasının 3-cü maddəsinə əsasən beynəlxalq təşkilatların müqavilələri hüquqi qüvvəsi və təbiəti baxımdan dövlətlərin bağladıqları müqavilələrdən fərqlənmir. Bu baxımdan qeyd olunan konvensiyaların müddəaları *mutatis mutandis* dövlətüstü qurum xüsusiyyətlərinə malik olan beynəlxalq təşkilatların müqavilələrinə də tətbiq olunur.

BDT-nin beynəlxlq hüquq subyektliyinin məzmununu təşkil edən digər mühüm ünsür, imtiyaz və immunitetlərdən istifadə qabiliyyətidir. Belə ki, hər bir dəniz təşkilatı üzv dövlətlərin ərazisində öz funksiyalarını normal yerinə yetirməsi üçün imtiyaz və immunitetlərdən istifadə edir. Bunun məqsədi, təşkilatın bu və ya digər dövlətin ərazisində fəaliyyət göstərərkən həmin dövlətin yurisdiksiyasına tabe olmamasını təmin etməkdir. BDT-nin funksional xarakter daşıyan imtiyaz və immunitetləri ilk növbədə onların təsis sənədlərində və daxili hüququnda təsbit olunur.BDT-nin immunitetlərinə: 1)qanunvericilikdən immunitet; 2) mülkiyyət immuniteti; 3) məhkəmə immuniteti; 4) vergi immuniteti və s. aiddir. *De lege lata* Dövlətlərin və onların mülkiyyətinin yurisdiksiya immuniteti haqqında 2004-cü il Konvensiyasının *mutatis mutandis* beynəlxalq təşkilatların da yurisdiksiya immunitetinə tətbiq edilməsi düzgün hesab oluna bilər.

**Dördüncü paraqraf** beynəlxalq dəniz təşkilatlarının beynəlxalq hüquqi məsuliyyətini ehtiva edir. BDT-nin beynəlxalq hüquq subyektliyinin əsas elementlərindən biri də qeyri-hüquqi davranışa görə məsuliyyət daşımaq qabiliyyətinin olmasıdır. BDT-nin beynəlxalq-hüquqi məsuliyyətinin hədləri eyni deyil və onların hər birinin hüquq subyektliyinin həcmindən asılıdır. Belə ki, BDT-nin hər biri səlahiyyətləri çərçivəsində və yerinə yetirdiyi funksiyaya uyğun olaraq öz hərəkətlərinə görə məsuliyyət daşıyırlar (1982-ci il Konvensiyası, m.159, 235). Qeyd olunan funksiya və səlahiyyət bölgüsünə uyğun olaraq təşkilatın orqanlarının məsuliyyəti ayrıca müəyyən olunur. Hər bir əsas orqan ona verilən funksiya və səlahiyyətlərin həyata keçirilməsi üçün cavabdehdir (1982-ci il Konvensiyası, m. 158, b.4) və biri digərinin öhdəlikləinə görə məsuliyyət daşımır (IV Əlavə, m.2). BDT həm siyasi, həm də maddi məsuliyyət daşıya bilirlər. Təşkilat funksiyalarını yerinə yetirmədikdə, digər beynəlxalq təşkilatlarla bağlanmış sazişləri



yerinə yetirmədikdə, üzv dövlətlərin suveren hüquqlarını pozan diskriminasion qərarlar qəbul etdikdə, üzv dövlətlərin və digər beynəlxalq hüquq subyektlərinin, o cümlədən yerləşdiyi dövlətin daxili işlərinə müdaxilə etdikdə və s. hallarda siyasi məsuliyyət daşıyır. 1982-ci il Konvensiyasına əsasən, BDT həyata keçirdikləri fəaliyyət zamanı (m. 263), dəniz mühitinin hər hansı formada çirklənməsinə görə (m.235), bağlanmış kontraktları pozmaqla (m. 187) və s. hallarda maddi məsuliyyət daşıyırlar və dəymiş zərəri ödəməyə borcludurlar. Düzdür, beynəlxalq təşkilatın hansı formada maddi məsuliyyət daşıması konkret müəyyən olunmur və dövlətlərin maddi məsuliyyəti ilə bağlı normaların da mexaniki olaraq beynəlxalq təşkilata tətbiq etmək düzgün olmazdı. Hərçənd, 1982-ci il Konvensiyası, məsuliyyətlə bağlı mövcud olan və ya gələcəkdə yaranacaq beynəlxalq hüquq normalarının tətbiqini istisna etmir (m. 304). Bu baxımdan bütövlükdə beynəlxalq təşkilatlara aid məsuliyyətlə bağlı mövcud normaların, o cümlədən *Dövlətlərin məsuliyyəti haqqında maddələr layihəsinin* ümumi müddəalarının *mutatis mutandis* BDT-nin məsuliyyətinə də aid etmək olar.

**Beşinci paraqrafda** beynəlxalq dəniz təşkilatlarının dövlətüstü qurum xüsusiyyəti tədqiq edilir. BDT-nin beynəlxalq hüquq subyektliyinin məzmununa aid olan digər mühüm ünsürlərdən biri də onların müstəqil iradəyə malik olmasıdır. Beynəlxalq təşkilatın müstəqil iradəsi, onun üzvlərinin iradəsinin uzlaşdırılmasının nəticəsidir və onların iradəsi ilə paralel mövcuddur. Bu iradə onların, üzvlərin hüquq və vəzifələrindən fərqli hüquq və vəzifələrə malik olmasında və fərqli hüquq və vəzifələri həyata keçirmələrində ifadə olunur. BDT-nin müstəqil iradəsinin həcmi dövlət suverenliyi və beynəlxalq təşkilatın səlahiyyət həcmi arasındakı nisbətin müəyyən edilməsindən asılıdır. Bundan asılı olaraq ənənəvi beynəlxalq təşkilatları və dövlətüstü (millətüstü qurum xarakterli) beynəlxalq təşkilatları fərqləndirmək olar. 1982-ci il Konvensiyasına görə (m. 305), beynəlxalq təşkilatlar Konvensiyanın iştirakçısı ola bilər.

Qloballaşma dövründə beynəlxalq təşkilatlar, o cümlədən BDT sistemində hər hansı dövlətüstü beynəlxalq təşkilatın yaranması və ya mövcud təşkilatların dövlətüstü xarakter daşıyan müəyyən xüsusiyyətlər əldə etməsi hər hansı bir təhlükə törətmir və buna qarşı

çıxmaq da qeyri-obyektivdir. Bunu aşağıdakılarla izah edə bilərik. *Birincisi,* beynəlxalq təşkilatın dövlətüstü qurum xüsusiyyətləri kəsb etməsi cəmiyyətin və beynəlxalq münasibətlərin obyektiv inkişaf qanunauyğunluğundan irəli gəlir. Məhz cəmiyyətin inkişafının obyektiv qanunauyğunluğu təsisçi dövlətlərin subyektiv qərarlarını şərtləndirir. *İkincisi,* dövlətüstü beynəlxalq təşkilatın yaradılması və ya mövcud beynəlxalq təşkilata müəyyən dövlətüstü səlahiyyətlərin verilməsi onun üzvü olan dövlətlərin suverenliyinin itirilməsi demək deyildir. Nəzərə alsaq ki, beynəlxalq təşkilatların fəaliyyətində yaranan dövlətüstü xüsusiyyətlər beynəlxalq-hüquqi tənzimetmənin xüsusi bir üsuludur, o halda aşağıdakı nəticəyə gəlmək olar: 1) dövlətlər könüllü olaraq beynəlxalq müqavilə əsasında özlərinin müəyyən səlahiyyətlərini beynəlxalq təşkilata həvalə edirlər; 2) dövlətlər beynəlxalq təşkilata konkret məsələ üzrə və ya konkret səlahiyyətləri verirlər; 3) dövlətüstü səlahiyyətlərin olması, təşkilatın üzvü kimi suveren dövlətlərin mövcudluğunu inkar etmir. *Üçüncüsü,* dövlətüstü beynəlxalq təşkilatların yaradılması və fəaliyyəti beynəlxalq hüququn prinsip və normalarına əsaslanır və bu baxımdan dövlət suverenliyi və daxili işlərə qarışmamaq prinsiplərinə zidd ola bilməz.

Dissertasiyanın **«Beynəlxalq dəniz təşkilatlarının norma-yaratma qabiliyyəti onların beynəlxalq hüquq subyektliyinin zəruri elementi kimi»** adlanan **üçüncü fəsli** dörd paraqrafdan ibarətdir. **Birinci paraqrafda** beynəlxalq dəniz təşkilatlarının normayaradıcılığı fəaliyyətinin anlayışı, xüsusiyyətləri və formalarından bəhs edilir. Qeyd edilir ki, BDT-nin normayaradıcılığı beynəlxalq normayaradıcılığının bir forması olmaqla iki mərhələdən ibarətdir: 1) hüquq normalarının məzmununa münasibətdə subyektlərin iradəsini uzlaşdırmaq; 2) müəyyən olunan davranış qaydalarının məcburi hüquq norması qismində subyektlər tərəfindən tanınması (*opinio juris*).

BDT-nin normayaradıcılığı fəaliyyəti üç istiqamətdə həyata keçrilir: 1) Dünya okeanından istifadə üzrə dövlətlər arasında, onlarla beynəlxalq təşkilatlar arasında yaranan ümumi xarakterli (dövlətlərarası) münasibətləri tənzim edən beynəlxalq dəniz hüquq normalarının yaradılması istiqamətində; 2) dənizdən istifadə sferasında yaranan fiziki və hüquqi şəxslər (dəniz nəqliyyatı



təşkilatları) arasında, o cümlədən onlarla dövlətlər və beynəlxalq təşkilatlar arasında yaranan xüsusi xarakterli münasibətləri tənzimləyən beynəlxalq xüsusi dəniz hüququ normalarının yaradılması istiqamətində; 3) təşkilatdaxili münasibətləri tənzimləyən daxili hüquq normalarının yaradılması istiqamətində. Bu istiqamətlərdə BDT-nin normayaradıcılığı fəaliyyəti əsasən iki formada həyata keçirilir; 1) beynəlxalq dəniz hüquq normalarının yaradılmasında birbaşa iştirak; 2) dövlətlərin normayaradıcılığı prosesində iştirak (*«kvazinormayaradıcılığı»*).

Birbaşa normayaradıcılığı, beynəlxalq müqavilələrin bağlanması; daxili hüquq normalarının müəyyən edilməsi; beynəlxalq dəniz münasibəti iştirakçıları üçün davranış qaydaları müəyyən edən qərarların qəbul edilməsi formasında həyata keçrilir. Kvazinormayaradıcılığı beynəlxalq ümumi və xüsusi dəniz hüququ normalarını təsbit edən beynəlxalq müqavilələrin hazırlanmasında iştirak formasında yerinə yetrilir. Bütövlükdə normayaradıcılığı prosesi ya beynəlxalq təşkilat çərçivəsində, ya da beynəlxalq təşkilatın himayəsi altında yerinə yetrilir. BDT üçün sonuncu xarakterikdir. Kvazibeynəlxalq normayaradıcılığı formasında BDT müxtəlif rollarda çıxış edir; 1) müqavilə bağlanmasının təşəbbüsçüsü kimi; 2) müqavilə layihəsinin müəllifi kimi; 3) gələcək beynəlxalq konfransın təşkilatçısı kimi; 4) müqavilənin qəbul olunduğu konfrans kimi; 5) müqavilənin depozitarisi kimi; 6) müqaviləni təfsir edən orqan kimi.

BDT-nin beynəlxalq müqavilələr bağlamaq imkanı, *Dövlətlər və beynəlxalq təşkilatlar və ya beynəlxalq təşkilatlar arasında müqavilələr hüququ haqqında* 1986-cı il Vyana Konvensiyasından irəli gəlir. BDT-nin növbəti normayaradıcılığı forması beynəlxalq təşkilatların qətnamələr (qərarlar) qəbul etməsidir. Qərarlar iki qrupa bölünür; 1) təşkilatdaxili məsələlərlə bağlı qəbul edilən, başqa sözlə, təşkilatın daxili hüquq normalarını müəyyən edən qərarlar; 2) təşkilatın öz fəaliyyətinin əsas istiqamətləri *(xarici tənzimetmə)* üzrə qəbul olunan qərarlar. *Xarici tənzimetmə* beynəlxalq normaya-radıcılığının yeni formasıdır. Bu formada müəyyən olunan qaydalar təşkilatın qətnaməsində təsbit olunur. Hüquqi aktlar müxtəlif ola və beynəlxalq hüquqi tənzimetmədə fərqli rola malik ola bilərlər. BDT-nin qətnamələri hüquq normaları müəyyən etməklə hüququn

mənbəyi; hüquq normalarının tətbiq aktı ola bilər; hüquq normalarının təfsiri aktı qismində çıxış edə bilər və s.

**İkinci paraqrafda** beynəlxalq dəniz təşkilatlarının qətnamələrinin hüquqi təbiəti təhlil edilir. Qeyd olunur ki, BDT-lər fəaliyyətlərinin əsas istiqamətləri üzrə məcburi xarakterli qərarlar qəbul edə bilərlər. Məsələn, İMO-nun daxili məsələlərlə bağlı qəbul etdiyi qətnamələri məcburi xarakter daşıyır. Qəbul olunan qətnamələrin məcburiliyi təşkilatın təsis aktına əsaslanmalıdır. Yəni qətnamələrdə təsbit olunan normaların hüquqi məcburiliyi, üzv dövlətlərin təsis aktında təsbit olunan ilkin razılaşması ilə müəyyən olunur. 1982-ci il Konvensiyasına əsasən (m.209), Orqan Rayonda həyata keçrilən fəaliyyətlə bağlı dəniz mühitinin çirkləndirilməsi ilə mübarizə üçün XI hissəyə müvafiq olaraq beynəlxalq norma və prosedurlar müəyyən edir (m. 153, 4).

Təşkilatın qətnaməsi formasında beynəlxalq hüquq normalarının müəyyən edilməsində dövlətlərin iradələrinin uzlaşdırılması beynəlxalq təşkilat vasitəsi ilə baş verir. Beləliklə, qətnamə nəticə etibarı ilə beynəlxalq təşkilatın iradəsini ifadə etsə də, təsis aktı üzv dövlətlərin razılaşmasına əsaslanır. BDT sistemində «səlahiyyətli beynəlxalq təşkilat» olması səbəbindən mərkəzi yer tutan İMO-nun qətnamələri İMO haqqında Konvensiyanın 2-ci maddəsinə görə tövsiyyə xarakterli olsalar da, bu qətnamələrdəki normaların tətbiq təcrübəsini təhlil edərkən, onların məcburi xarakterli olması barədə fikir yürütmək olar: *Birincisi*, dəniz gəmiçiliyinin təhlükəsizliyi ilə bağlı məsələlər konkret hüquq normaları ilə tənzimlənmədikdə, həmin məsələlərlə bağlı müəyyən olunan tövsiyyələr məcburi xarakter daşıyır. *İkincisi,* İMO-nun müəyyən etdiyi tövsiyyə xarakterli normaların müvafiq olaraq beynəlxalq müqavilələrə daxil edilməsi və onların müqavilə norması kimi hüquqi məcburiyyət kəsb etməsidir. Məsələn, İMO tərəfindən müəyyən olunan və yolayrıcı sxemlərlə bağlı qaydalar Dənizdə gəmilərin toqquşmasının qarşısının alınmasının beynəlxalq qaydaları haqqında 1972-ci il Konvensiyasına (m.10) daxil edilmişdir. *Üçüncüsü,* İMO-nun tövsiyyələri hamı tərəfindən qəbul olunan dəniz praktikasına əsaslandığı üçün beynəlxalq adət norması kimi nəinki İMO üzvü olan dövlətlər tərəfindən, o cümlədən təşkilatın üzvü olmayan dövlətlər tərəfindən də könüllü şəkildə istifadə olunur.



*Dördüncüsü,* səlahiyyətli beynəlxalq təşkilat kimi İMO-nun dənizdə təhlükəsizliklə və dəniz mühitinin çirklənməsinin qarşısının alınması ilə bağlı beynəlxalq norma və standartlar müəyyən etməsinin (m.39, 207, 208, 211), o cümlədən həmin norma və standartların yerinə yetrilməsinin (m. 213-222) 1982-ci il Konvensiyasında təsbit olunması, İMO-nun müvafiq məsələlərlə bağlı qəbul etdiyi qətnamələrin məcburiliyi üçün hüquqi əsas yaradır. *Beşincisi,* dövlətlər İMO-nun qətnamələrindəki norma və standartları öz qanunvericiliklərinə daxil etməklə onların məcburiliyi ilə razılaşırlar.

Göründüyü kimi, İMO-nun qətnamələri həm məcburi, həm də tövsiyyə xarakterli ola bilər. Bu qərarlar beynəlxalq münasibətlərin yeni tənzimetmə forması kimi beynəlxalq dəniz hüququnun mənbəyi qismində çıxış edir. Bu o deməkdir ki, dənizdən istifadə üzrə yaranan münasibətlər həm məcburi *«sərt hüquq» (hard law)*, həm də «yumşaq hüquq» *(soft law)*normaları əsasında tənzimlənir. Bu baxımdan BDT-nin qətnamələri (qərarları) dənizdən istifadə üzrə münasibətlərin tənzimlənməsində iki formada; 1) məcburi və ya tövsiyyə xarakterli olmaqla birbaşa tənzimləyici; 2) qeyri-birbaşa, beynəlxalq hüquq normalarının yaradılması prosesində iştirakla ola bilər.

**Üçüncü paraqrafda** beynəlxalq dəniz təşkilatlarının normayaradıcılığı və dövlətdaxili qanunvericiliyin qarşılıqlı nisbətindən bəhs edilir. BDT-nin normayaradıcılığı fəaliyyətinin nəticəsi kimi üç qrup: ümumi, xüsusi və inzibati xarakterli beynəlxalq normalar (qaydalar) yaranır. Bu normaların yaradılması və implementasiyası prosesi beynəlxalq hüquq yaradıcılığı və dövlətdaxili (milli) hüquq yaradıcılığının qarşılıqlı nisbəti problemindən kənarda baş verə bilməz. Ən azı ona görə ki, universal hüquq subyekti kimi dövlət beynəlxalq hüquq yaradıcılığı prosesində iştirak etməklə özünün daxili hüququndan istifadə edir. Bir tərəfdən, daxili hüququ ilə özünün beynəlxalq-hüquqi öhdəlikləri arasında baş verə biləcək ziddiyyətlərdən qaçmağa çalışır, digər tərəfdən, öz hüququnun inkişafını təmin etməyə cəhd edir.

Dünya okeanının hüquqi rejiminin müəyyən edilməsi məsələsinin həllində hüquq normaları kompleksindən: beynəlxalq hüquq (beynəlxalq ümumi, beynəlxalq xüsusi və beynəlxalq təşkilatlar hüququnun) normalarından və dövlətdaxili (ümumi və

xüsusi) hüquq normalarından istifadə edilməlidir. Dövlətdaxili qanunvericiliyin beynəlxalq norma və qaydaların yerinə yetirilmə vasitəsi olması 1982-ci il Konvensiyasında da nəzərdə tutulur (m.212, 213, 214 və s). 1982-ci il Konvensiyası beynəlxalq norma və standartlarla bağlı prinsipləri müəyyən edir. Bu baxımdan Konvensiya gəmiçilçk və gəmilərdən dəniz mühitinin çirklən-dirilməsi məsələləri ilə bağlı ümumi müddəaları təsbit etməklə «müqavilə-çətir» qismində çıxış edir. AR 1982-ci il Konvensiyasını ratifikasiya etməmişdən öncə İMO-nun üzvü olmaqla və onun qəbul etdiyi Konvensiyalarda iştirak etməklə (dolayısı ilə) 1982-ci il Konvensiyasının müddəalarını yerinə yetirmiş olurdu.

Beynəlxalq normaların implementasiyasında dövlətdaxili qanunvericilik xüsusi əhəmiyyət daşıyır. AR-in Konstitusiyasına görə (m. 148), AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələr AR-in qanunvericilik sisteminin tərkib hissəsidir. 2001-ci il Ticarət Gəmiçilik Məcəlləsinin 1-ci maddəsinə əsasən, ticarət gəmiçiliyindən yaranan münasibətlər AR-in qanunvericiliyi ilə yanaşı, onun tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə tənzimlənir. Ticarət Gəmiçilik Məcəlləsi ilə mümkün kolliziyalar da həll edilir. Əgər bu müqavilələrlə Ticarət Gəmiçilik Məcəlləsi arasında fərqlər yaranarsa, onda beynəlxalq müqavilə normaları tətbiq olunur (m.335).

AR-in dəniz gəmiçiliyi ilə bağlı normativ aktlarının təhlili belə deməyə əsas verir ki, BDT-nin, birinci növbədə İMO-nun beynəlxalq normalarının AR-də implementasiyası əsasən iki formada – inkorporasiya (daxiletmə) və istinad (göndərmə) ilə həyata keçirilir. Ticarət Gəmiçilik Məcəlləsi bütövlükdə inkorporasiya formasına misal ola bilər. Çünki Məcəllənin məzmunu mövcud beynəlxalq müqavilə normalarını özündə birləşdirir. Məcəllə qəbul edilərkən həm unifikasiyadan (AR-in qoşulduğu beynəlxalq müqavilələrdən istifadə etməklə), həm də harmonizasiyadan (AR-in tərəfdar çıxmadığı beynəlxalq müqavilə normalarından) istifadə olunmuşdur. İMO-nun müəyyən etdiyi beynəlxalq qeyri-müqavilə normalarının implementasiyası bir qayda olaraq inkorporasiya formasında həyata keçirilir.

**Dördüncü paraqrafda** beynəlxalq dəniz təşkilatlarının daxili hüququndan bəhs edilir. Beynəlxalq dəniz təşkilatlarının normal fəaliyyətini təşkilatdaxili tənzimləmə olmadan təsəvvür



etmək qeyri-mümkündür. İstənilən hər bir beynəlxalq təşkilat öz təşkilatdaxili münasibətlərini, yəni təşkilatla heyət arasındakı və təşkilatın orqanları arasındakı münasibətləri nizama salmaq məqsədilə müəyyən hüquqi normalar (daxili tənzimetmə aktları) qəbul edir və bu normaların məcmusuna adətən beynəlxalq təşkilatın daxili hüquqi deyilir. Özünün daxili hüququnun olması beynəlxalq təşkilatların müstəqil iradəyə malik olmasının göstəricisidir. Onların təşkilatdaxili münasibətlərini tənzimləyən normaların dairəsinə bir qayda olaraq daxili prosedur, reqlamentlər, büdcə-maliyyə quruluşu haqqında müddəalar, təşkilatın personalına, onun inzibati fəaliyyətinin digər aspektlərinə aid olan qaydalar, köməkçi orqanların yaradılması və onların nizamnamələrini müəyyən edən qaydalar və s. aiddir.

Təsis aktı *«expressis verbis»* təşkilatdaxili məsələlər üzrə normaların yaradılması haqqında bütün müddəaları nəzərdə tutmadığı halda belə, təşkilat bu hüquqa malikdir. Bunun əsasında beynəlxalq hüquqda qəbul edilən *«implied powers-ehtimal olunan, nəzərdə tutulan səlahiyyət»* nəzəriyyəsi durur. Onu da nəzərə almaq lazımdır ki, ehtimal olunan səlahiyyətin həcmi və onun mövcudluğu haqqında məsələ hər bir halda müvafiq beynəlxalq təşkilatın nizamanməsinin təfsiri məsələsidir. Burada söhbət nizamnamənin dəyişdirilməsi səlahiyyətindən deyil, nizamnamə əsasında fəaliyyət göstərmək səlahiyyətindən gedir.

Təşkilatdaxili hüququ təşkil edən normalar aşağıdakı xüsusiyyətlərə məlikdir: 1) bu normalar yalnız beynəlxalq təşkilatların daxilində fəaliyyət göstərir; 2) təşkilatdaxili normalar beynəlxalq hüquq normalarına xas olan ümumilik cəhətinə malik deyildir. Bu normaların məzmunu daha konkretdir. Beləliklə, hüquq normalarının bütün əlamətlərinə malik olmaqla, təşkilatdaxili normalar ümumi xarakterli hüquq normalarından: fəaliyyət sferasına görə (beynəlxalq təşkilat çərçivəsində); ünvanına görə – sistem kimi beynəlxalq təşkilatların komponentlərinə; tənzimetmə predmetinə görə (beynəlxalq təşkilatların fəaliyyəti ilə əlaqədar məsələlər); ifadə formasına görə (təşkilatın özünün qətnamələri) fərqlənirlər. Təşkilatdaxili normaların başlıca məqsədini ümumi normalar kimi təşkilat daxilində münasibətləri tənzimləmək təşkil edir. Lakin təşkilatdaxili normalar tabeçilik qaydasında müəyyən edilir,

beynəlxalq hüquqi normalarının iyerarxiyasında törəmə pillləni təşkil edirlər. Bununla belə, onlar beynəlxalq münasibətlərin hüquqi tənzimləmə mexanizmində müəyyən mərhələni əks etdirirlər. Təşkilatdaxili tənzimlənmənin sosial dəyəri baxımından, o ikili xarakterlidir. *Birincisi,* ayrı-ayrı beynəlxalq təşkilatlar səviyyəsində onların spesifikasına uyğun olaraq beynəlxalq münasibətləri adekvat tənzimləməyə imkan verir. *İkincisi,* beynəlxalq təşkilatın nizamnaməsinə düzəlişlərin qəbulundan fərqli olaraq, hüquqi tənzimlənmənin müəyyən olunmasının zəruriliyinin yaranması zamanı operativ qeydə alma imkanı verir.

Dissertasiyanın **«Hüquq tətbiqetmə prosesi kimi beynəlxalq dəniz təşkilatları çərçivəsində mübahisələrin həllinin xüsusiyyətləri»** adlanan **dördüncü fəsli** iki paraqrafdan ibarətdir. **Birinci paraqrafda** beynəlxalq dəniz mübahisələrinin dinc həllinin məhkəməyə (arbitraja) qədər mərhələsinin əsasları və institusional vasitələrindən bəhs edilir. Beynəlxalq dəniz hüququ mübahisələrinin BMT sistemində həllinin mühüm və ilkin elementini beynəlxalq konfranslar təşkil edir. Beynəlxalq dəniz mübahisələrinin tənzimlənməsi sistemində xüsusi əhəmiyyətli orqanlardan biri İMO hesab olunur. İMO haqqında Konvensiyanın 1-ci maddəsinə uyğun olaraq, o beynəlxalq dəniz mübahisələrinin həm konseptual, həm də praktik həllini həyata keçirə bilər. İMO-nun beynəlxalq dəniz mübahisələrinin həlli üzrə konkret səlahiyyətləri 1982-ci il Konvensiyası ilə müəyyən olunur. Belə ki, Konvensiyanın VIII Əlavəsinin 2-ci maddəsinin 2-ci bəndinə uyğun olaraq, "Xüsusi Arbirtaj"ın gəmiçilik sahəsində ekspertlərinin siyahısı İMO tərəfindən təqdim olunur. Bundan başqa beynəlxalq hüquqda daha çox mübahisə doğuran məsələnin məcburi qaydalar müəyyən olunması ilə həlli də İMO-ya həvalə olunmuşdur. 1974-cü il Dənizdə insan həyatının mühafizəsinə dair beynəlxalq Konvensiyanın V hissəsinin 8-1 Qaydasına uyğun olaraq, İMO beynəlxalq səviyyədə gəmi məlumat sistemi üçün rəhbər kriteriya və qaydaların hazırlanması üzrə yeganə beynəlxalq təşkilat qismində tanınır. Belə bir sistem qəbul edilmək üçün İMO-ya göndərilir və yalnız bu qurum gəmilərin məcburi hərəkət marşurutlarının müəyyən edilməsi səlahiyyətlərinə malikdir.

Beynəlxalq dəniz mübahisələrinin həll olunmasında, xüsusilə



dəniz sərhədlərinin müəyyən edilməsində Dəniz Dibi üzrə Beynəlxalq Orqanın da rolu böyükdür. Bu qurumun hüquqi statusu 1982-ci il Konvensiyası ilə nəzərdə tutulsa da, 1995-ci ildə fəaliyyətə başlamışdır. Onun əsas missiyası beynəlxalq dənzi dibi rayonunda milli yurisdiksiya hüdudlarının müəyyən edilməsi üzrə, dəniz kontinental şelf hüdudları üzrə dövlətlərin fəaliyyətini tənzimləməkdir. Beynəlxalq dəniz hüququ, xüsusilə dəniz dibinə dair dövlətlərarsı mübahisələrin həllində mühüm əhəmiyyət kəsb edən qurum qismində Hüquqi və texniki komissiyanın rolunu qeyd etmək lazımdır. Belə ki, Hüquqi və texniki komissiya zəruri tövsiyyə, qayda və prosedураları işləyib hazırlayır. O, dəniz dibinə aid mübahisələr üzrə Kamerada araşdırma aparılması üçün Orqanın adından Şuraya tövsiyələr verə bilər. Göründüyü kimi, Hüquqi və texniki komissiyanın dəniz dibinə dair dövlətlərarası mübahisələr üzrə ilkin araşdırma və ya tədqiqatlar aparılması üçün hətta Orqanın adından belə müəyyən təkliflər verməsi təqdirələayiq haldır. Şuranın qəbul edəcəyi ədalətli qərarların mahiyyəti də bu Komissiyanın verəcəyi qiymətdən və irəli sürəcəyi təlkiflərdən olduqca asılıdır.

1982-ci il Konvensiyasına əsasən beynəlxalq dəniz mübahisələrinin həlli üzrə əsas qurumlardan biri də Kontinental şelf sərhədləri üzrə Komissiya hesab olunur. Komissiyanın məqsədi Dəniz hüququ üzrə 1982-ci il Konvensiyasının həyata keçirilməsində, o cümlədən ərazi dənzinin eninin ölçülməsi üçün son xətdən 200 dəniz mili hüdudunda kontinental şelfin xarici sərhədlərinin müəyyən olunmasına dair məsələlərin həllində BMT-yə yardımçı olmaqdır. 1982-ci il Konvensiyasına edilən II Əlavənin 3-cü maddəsinə uyğun olaraq, Komissiya aşağıdakı funksiyaları həyata keçrir: 1) kontinental şelf rayonunun xarici sərhədlərinə dair, bu sərhədlər 200 dəniz mili hüdudunu aşdıqda, sahil dövlətlərindən daxil olan materiallara baxır və müvafiq tövsiyyələr verir; 2) sahil dövlətinin xahişi ilə elmi texniki konsultasiyalar təqdim edir. Konvensiyanın 76-cı maddəsinin səkkizinci bəndinə müvafiq olaraq, Komissiya sahil dövlətinə kontinental şelfin xarici sərhədlərinə dair məsələlər üzrə tövsiyyələr verir. Göstərilən tövsiyyələr əsasında sahil dövlətləri üçün müəyyən olunan şelf sərhədləri yekun xarakter daşıyır və bütün iştirakçılar üçün məcburidir. Kontinental şelf sərhədləri üzrə Komissiyanın beynəlxalq dəniz mübahisələrinin

həllində rolu iki mühüm səbəbə görə daha əhəmiyyətli hesab oluna bilər. Birincisi, bu qurum 1982-ci Konvensiyasının müddəalarından irəli gələn vəzifələri həyata keçirməklə bütün mübahisələrin konvension əsasda köklü həlli üçün detallı həll mexanizmi təklif edir. İkincisi isə, müvafiq tövsiyyələr verməsinə və maraqlı sahil dövlətinin xahişi ilə elmi texniki konsultasiyalar təqdim etməsinə baxmayaraq, onun qərarları iştirakçı dövlətlər üçün məhz kontinental şelf üzrə ixtisaslaşdığına görə məcburi xarakter daşıyır.

**İkinci paraqrafda** beynəlxalq dəniz və ya dünya okeanından istifadə ilə bağlı mübahisələrin həllinin məhkəmə (arbitraj) mərhələsinin təşkilati mexanizmlərindən bəhs edilir. Mübahisələrin həlli mexanizmləri ilə bağlı normalar Dəniz hüququ üzrə 1982-ci il Konvensiyasında təsbit edilib. Konvensiyanın «Mübahislərin tənzimlənməsi» adlanan XV hissəsinin əsasında iki prinsip dayanır: mübahisə iştirakçılarına geniş seçim imkanının verilməsi və nəzərdə tutulan dinc vasitələrin ardıcılıqla tətbiq edilməsi. Eyni zamanda mübahisə tərəfləri BMT Nizamnaməsinin 33-cü maddəsində və digər beynəlxalq aktlarda təsbit edilən həll vasitələrindən istifadə etmək hüququnu saxlayır. Dövlətlərarası mübahisələrin həlli vasitəsi kimi arbitraja olan zəruri tələbat onların Dəniz hüququ üzrə 1982-ci il Konvensiyasına müvafiq olaraq, dünya okeanında həyata keçirdikləri fəaliyyətləri ilə əlaqədardır. Hazırda 25-dən çox beynəlxalq dəniz arbitrajı (məsələn, London dəniz arbitrləri assosiasiyası, Dəniz arbitraj komissiyası və s.) fəaliyyət göstərir.

Arbitrajın bir vasitə kimi mühümlüyünü aşağıdakılarla izah etmək olar: Birincisi, arbitraj özünün tarixiliyi və dövlətlərarası sistemdə daha sınanmış, etibarlı mövqeyi ilə diqqəti cəlb edir. İkincisi, arbitraj prosedurunda qərarlar tərəflərin iştirakı ilə seçilmiş arbitr və ya arbitrlər tərəfindən qəbul edilir. Üçüncüsü, arbirtaj araşdırmasının həyata keçirilməsi məhkəmə sisteminə münasibətdə daha çevikdir. Dəniz mübahisələrinin tənzimlənmə sistemində arbitrajın rolu açar xarakterlidir. *Birincisi,* əgər mübahisədə tərəflər "mübahisənin tənzimlənməsi üçün bu və ya digər proseduru qəbul etmirlərsə və əgər tərəflər arasında digər formada razılıq mövcud deyildirsə, VII Əlavəyə uyğun olaraq, bu yalnız arbitraja verilə bilər (287-ci maddənin 5-ci bəndi). *İkincisi,* "mübahisə tərəfi olan, müvafiq bəyanat verməyən iştirakçı dövlət VII Əlavəyə uyğun



olaraq, arbitrajla razılaşmış hesab olunur"(287-ci maddənin 3-cü bəndi).

Beynəlxalq dəniz mübahisələrinin tənzimlənməsində mühüm əhəmiyyətli rolu olan və qərarları tərəflər üçün hüquqi məcburilik kəsb edən dəniz mübahisələri üzrə ixtisaslaşmış qurumlardan biri Dəniz hüququ üzrə BMT Beynəlxalq Tribunalıdır. Tribunal BMT-nin Dəniz hüququ üzrə III Konfransında iştirakçıların dairəsi üzrə deyil, beynəlxalq münasibətlərin məhz bu sferası üzrə yaradılan, ilk beynəlxalq məhkəmə kimi, tamamilə yeni məhkəmə orqanı qismində çıxış edir. Bu qurum vahid, daimi fəaliyyətdə olan, xüsusi olaraq dəniz mübahisələri üçün yaradılan məhkəmə orqanıdır. Tribunalın statusu və hüquqları 1982-ci il Konvensiyasının müvafiq müddəaları ilə və Konvensiyaya VI xüsusi Əlavəsi (Tribunalın Statutu) ilə müəyyən olunmuşdur. Tribunal 1982-ci il Konvensiyasının tətbiqi nəticəsində yaranan dövlətlərarası mübahisələrin həlli və müxtəlif məsələlər üzrə konvensiyanın təfsiri məsələləri ilə məşğuldur. Bu, həmiçinin 1982-ci il Konvensiyası ilə əlaqəli olan hər hansı digər beynəlxalq müqaviləyə dair mübahisə də ola bilər. Praktikada Tribunala dəniz məkanlarının sərhədləri ilə əlaqədar mübahisələrə baxılmasına icazə verilmir. Ənənəvi olaraq, bu, BMT Beynəlxalq Məhkəməsinin səlahiyyətinə aid olan məsələ hesab olunur. Tribunal işlərə baxarkən 1982-ci il Konvensiyasını və Konvensiya ilə uyğunsuzluq təşkil etməyən digər beynəlxalq hüquq normalarını tətbiq edir və əgər tərəflərin razılığı vardırsa, bu müddəalar məhkəmənin işi *ex aequo et bono* həll etməsi hüququnu məhdudlaşdırmır. Qərar çıxararkən Tribunal özünün əvvəlki qərarlarını, eləcə də, BMT Beynəlxalq Məhkəməsinin dəniz mübahisələri üzrə qərarlarını da nəzərə alır. Tribunalın qərarları qəti xarakter daşıyır, yalnız mübahisə tərəfləri üçün və yalnız həmin mübahisəyə münasibətdə məcburi hüquqi qüvvəyə malikdir. Tribunal tərəflərin hər hansı birinin xahişi üzrə qərarın təfsirini də verə bilər. Tribunalın fəaliyyətinin mühüm cəhətlərindən biri də 1982-ci il Konvensiyasının iştirakçısı olmayan dövlətlərin buraya müraciət etmək imkanları ilə bağlıdır.

Beynəlxalq dəniz mübahisələrinin həllində BMT-nin Beynəlxalq Məhkəməsinin özünəməxsus rolu vardır. BMT-nin Beynəlxalq Məhkəməsi dəniz mübahisələrinə münasibətdə universal

yurisdiksiyaya malik olan yeganə məhkəmə orqanıdır. Hazırda Məhkəmə çərçivəsində Ətraf mühitin mühafizəsi məsələləri üzrə xüsusi Palata fəaliyyət göstərir. Bu əhəmiyyətli dərəcədə dəniz mühitinin mühafizəsinə dair dövlətlərarası mübahisələrin həllinə yardımçı olur. Konvensiyanın 287-ci maddəsinə görə dövlət mübahisənin tənzimlənmə vasitəsi qismində yazılı bəyanatla Beynəlxalq Məhkəməni seçə bilər. Məhkəmə mübahisə üzrə 1982-ci il Konvensiyasının müddəalarını bilavasitə tətbiq edir. Bununla yanaşı qeyd etmək lazımdır ki, Konvensiyanın müddəalarının tətbiqi, mübahisə tərəflərinin onun iştirakçısı olmasına baxmayaraq, tam mənada məcburi xarakter daşımır. Beynəlxalq dəniz mübahisələrinin həlli üzrə müəyyən bir sistem formalaşdırmaqla mübahisələrin həllinin məhkəmə (arbitraj) mərhələsi beynəlxalq hüquqi təminata xidmət etməkdədir.

**Tədqiqat işinin nəticəsində** mövzu ilə bağlı əldə edilmiş nəticələr və onların nəzəri və təcrübi əhəmiyyəti qeyd olunur.

**Tədqiqat işi ilə bağlı aşağıdakı elmi əsərlər nəşr edilmişdir:**


1. Beynəlxalq dəniz təşkilatlarının hüquq subyektliyi/ Dövlət və hüquq, Elmi məqalələr toplusu, №1-3, 1999, s. 205-211;
2. Hökumətlərarası məşvərətçi dəniz təşkilatı-İMKO. İMKO-nun yaranması tarixi/ Məhkəmə ekspertizası, kriminalistika və kriminalogiyanın aktual məsələləri, 2006, № 44, s. 418-422;
3. İMKO-ya üzvlük, onun məqsəd və vəzifələri/ Dövlət və hüquq, Elmi məqalələr toplusu, №1-3, 2007, s.122-124;
4. İMKO-nun strukturu/ Məhkəmə ekspertizası, kriminalistika və kriminalogiyanın aktual məsələləri 2007, № 45, s. 290-296;
5. İMKO-nun fəaliyyəti/ Məhkəmə ekspertizası, kriminalistika və kriminalogiyanın aktual məsələləri, Bakı, 2007, № 46, s. 393-397;
6. Dəniz balıqçılığı üzrə beynəlxalq təşkilatlar: onların beynəlxalq hüquqi statusu və fəaliyyətlərinin əsas istiqamətləri/ Məhkəmə ekspertizası, kriminalistika və kriminalogiyanın aktual məsələləri, Bakı, 2008, № 48, s. 230-233;
7. Dəniz balıqçılığı üzrə beynəlxalq təşkilatların təsnifat-laşdırılması/«Ölkə iqtisadiyyatının inkişafında elmi





innovasiyanın rolu: 3-cü beynəlxalq elmi-praktiki konfransın materialları, 2009, s. 177-181;
8. Arbitraj-dövlətlərin dəniz mübahisələrinin həlli vasitəsi kimi/ Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2010, №2 (22), s. 82-88;
9. Beynəlxalq dəniz təşkilatlarının hüquq subyektliyini müəyyən edən amillər/«Dirçəliş XXI əsr», 2010, 147/148, s. 270-276;
10. Нормотворчество международных морских организаций и внутригосударственное законодательство/ Право: теория и практика, 2010, № 4-5 (129-130), с. 13-18.

# РЕЗЮМЕ

Диссертационная работа на тему «Правосубъектность международных морских организаций», представленная Гусейновом Агилом Саййад оглу на соискание ученой степени доктора философии по праву по специальности 5603.01 – «Международное право; права человека», является самостоятельной, творческой и завершенной научно-исследовательской работой, отражающей совершенно новые научные положения и имеющей очень важное значение с точки зрения изучения международно-правовых проблем правосубъектность международных морских организации часть использованная режима мирового как составная океана.

Диссертационная работа сформирована на основе сравнительного анализа международной договорной практики и законодательства Азербайджанской Республики. Диссертационная работа состоит из введения, четырех глав, заключения и списка использованной литературы. Во введении обосновывается актуальность темы исследования, указывается степень разработанности, научная новизна темы исследования, приводятся новые положения, выносимые на защиту цели и задачи, теоретическое и практическое значение исследования.

Первая глава диссертационного исследования, под названием «Понятие, особенность и система международных морских организации как составная часть правового режима мирового океана», состоит из трех параграфов. В этой главе изучается система, характерные особенности, правовая природа и по нятие международных морских организации. Определяется место международных норм по международным морским организациям в правовом режиме мирового океана.

Вторая глава диссертационной работы называется «Основы и содержания международной правосубъектности международных морских организации» и состоит из пяти параграфов. В этой главе, проанализированы такие актуальные вопросы, как понятие правовых основы правосубъектности международных морских организации, критерии и содержания правосубъектности, ответственность и «надгосударственная» особенность этих организаций.

Третья глава называется «Нормотворческая способность международных морских организации как необходимый элемент их международной правосубъектности» которая состоит из четырех параграфов. В этой главе,–проанализированы и исследованы понятие, особенности, формы нормотворчество, стандарты и внутреннее право международных морских организации. В то же время, в этой главе анализируется законодательство АР во взаимодействие с международными морскими организациями.

Четвертая глава диссертационного исследования состоящая из двух параграфов называется «Особенности разрешение споров в рамках международных морских организации как правоприменительный процесс».

В этой главе, рассматриваются все этапы мирного разрешения международных морских споров. В особенности, отмечается значение международных судебных (арбитражных) средств в разрешение споров.

В заключительной части диссертационного исследования приведены важнейшие предложения и выводы автора, полученные в результате проведенного исследования. А также, отмеченны их теоретические и практические значимости с



точки зрения международного и внутригосударственного права.

## SUMMARY

Dissertation work of Agil Sayyad ogly Huseynov by the name "Legal personality of the International Maritime Organization" for the purpose of obtaining the Doctoral degree of Philosophy in Law in the specialisation 5603.01 –"International law; human rights" is independent, creative and completed work, that reflects for completely new scientific purpose by having importance for the study of the international legal personality of problems of the International Maritime Organizations which are often used as part of the global regime of the ocean.

Dissertation has been formed by the norms of international treaty on the basis of comparative analysis of the practice of legislation of the Republic of Azerbaijan. The dissertation consists of an introduction, four chapters, conclusion and bibliography.

The introduction part of the dissertation substantiates the relevance of the research topic, which indicates the degree of elaboration, scientific novelty of the research topic, given the new provisions for the defense goals and objectives as well as the theoretical and practical significance of the study.

The first chapter is called "Concept, a feature, and the system of international maritime organizations as an integral part of the legal regime for the oceans" which consists of three paragraphs. This chapter studies the system characteristics of the legal nature and concept of the International Maritime Organization. The place of international standards on the International Maritime Organization in the legal regime for the world ocean.

The second chapter is called "Bases and content of the international legal personality of the international maritime organization" which consists of five paragraphs. This chapter analyzes topical issues such as concept of the legal foundations of the legal personality of the international maritime organization, the criteria and content of legal responsibility and "supranational" feature of these organizations.

The third chapter is called "Rule-making ability of international maritime of organization as an essential element of international personality" which consists of four paragraphs. This chapter analyzes and studies the concept, features, form of rule-making standards and internal right to the international maritime organization. In the meantime, this chapter analyzes the legislation of Republic of the Azerbaijan in co-operation with the international maritime organizations.

The fourth chapter is called "Features of dispute resolution in the framework of international maritime organization as an enforcement process" which consist of two paragraphs. This chapter deals with all stages of the peaceful settlement of international maritime disputes. In particular, notes of importance of international judicial (arbitration) means in the resolution of disputes.

The concluding part of the dissertation shows the most important proposals and conclusions of the author, received as a result of the study. As well as marked their theoretical and practical significance in terms of international and domestic law.




**Министерство Образования**
**Азербайджанской Республики**
**Бакинский Государственный Университет**

***На правах рукописи***

**Гусейнов Агил Саййад оглу**

**Правосубъектность международных морских организаций**

**Специальность: 5603.01- «Международное право; права человека»**

**АВТОРЕФЕРАТ**

**диссертации на соискание ученой степени доктора философии по праву**

**Баку – 2016**